**Doğum haqqında şəhadətnamənin rəsmiləşdirilməsi**

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Qanun”a əsasən Azərbaycan Respublikası vətəndaşlarından doğulan və ya valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

Kanadada yaşayan Azərbaycan Respublikası vətəndaşları öz övladları üçün doğum haqqında şəhadətnamənin rəsmiləşdirilməsi üçün AR-ın Kanadadakı Səfirliyinin Konsulluq Şöbəsinə müraciət edə bilərlər.

Bu məqsədlə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- valideynin adından doğum haqqında şəhadətnamənin verilməsi barədə sorğu-müraciət (uşağın adı Azərbaycan dilində göstərilməli);
- valideynlərin şəxsiyyətini təsdiq edən sənədlər (AR Ümumvətəndaş pasportları);
- müvafiq qaydada doldurulmuş Forma 118A;
- valideynlərin nikah haqqında şəhadətnaməsi;
- doğum faktını, vaxtını və yerini təsdiq edən tibb müəssisəsindən sənəd (Statement of Live Birth və ya Birth Certificate);
  *Uşağın doğumu haqqında qeydiyyat üçün gec (doğumdan 3 ay sonra) müraciət edildikdə, uşağın hələ də sağ olması haqqında həkimdən (family physician) arayış təqdim olunmalıdır;
- valideynlərin Kanadada daimi yaşadığını (Permanent Resident Card), təhsil aldığını və ya işlədiyini təsdiq edən müvafiq sənəd (tərcüməsinə ehtiyac yoxdur);
- valideynlərdən biri vəfat etdikdə və ya nikah rəsmi pozulduqda müvafiq şəhadətnamə;
- valideynlər arasında rəsmi nikah olmadıqda, uşağın atalığının müəyyən edilməsi üçün birgə ərizə;
- yeni doğulmuş uşağın şəklinin AR ümuvətəndaş pasportuna daxil edilməsi üçün, uşağın donuq (mat) formatda fotoşəkli -2 ədəd, atanın pasportuna yazıldıqda ananın rəsmi razılığı və ya ananın pasportuna yazıldıqda, atanın rəsmi razılığı (notarial qaydada təsdiq olunmalıdır)
- uşağın milliyətini müəyyənləşdirmək üçün valideynlərin doğum haqda şəhadətnamələrinin surətləri

***Qeyd.***

*Qeyd olunan sənədlərin əsli təqdim olunmadıqda, notarial təsdiq olunmuş surətləri konsulluq şöbəsinə göndərilməlidir.
*Doğum aktlarının qeydiyyatı rüsumsuzdur.
*Sənədlər poçt xidməti ilə göndərildikdə, ödənilmiş zərf əlavə olunmalıdır.

**VƏTƏNDAŞIN YAZDIĞI ŞƏXSI ƏRIZƏSININ NÜMUNƏSI**

Azərbaycan Respublikasının
Kanadadakı Səfirliyinə

Kanada, Ontario əyaləti
360 Gowan Ave., apt. 151
ünvanında yaşayan,
Əliyeva Aytən Sabir qızı tərəfindən
Tel: +1.....

**Ərizə**

Mən, Əliyeva Aytən Sabir qızı (15.10.1967-ci il təvəllüdlü, Pasport – P2569786) 2002-ci ildə Kanadaya (məqsədi göstərmək şərtilə) gəlmişəm və hal-hazırda Kanadada daimi (müvəqqəti) yaşayıram.

12.12.2002-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Kanadadakı Səfirliyinin konsul qeydiyyatındatam.

15.10.2009-cu ildə Kanadanın Toronto şəhərində qızım Əliyeva Sevil Rauf qızı dünyaya gəlmişdir.

Qızım üçün doğum haqqında şəhadətnamənin rəsmiləşdirilməsini (və pasportuma daxil edilməsini) xahiş edirəm.

Tarix:

İmza: